**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№** 075-395

**Bakı şəhəri** "29" noyabr **2024-cü il**

## Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2023-2024-cü illər üzrə rəsmi məlumatlarına əsasən, Gürcüstanın Aşağı Kartli (Kvemo Kartli) regionunda **xırdabuynuzlu heyvanların taun**, Nepal Federativ Demokratik Respublikasının Şərq (East), Qandaki (Gandaki), Madheş (Madhesh) əyalətlərində, Kanadanın Manitoba (Manitoba), Nyu-Brunsvik (New Brunswick), Şahzadə Eduard Adası (Prince Edward Island), Nyufaundlend-Labrador (Newfoundland and Labrador) əyalətlərində, Şotlandiyanın Şetland (Shetland Islands), Eilean-Siar (Eilean Siar), Pert və Kinross (Perthshire and Kinross), Anqus (Angus), Damfris-Qalloyey (Dumfries and Galloway), Şərqi Ayrşir (East Ayrshire), Fafe (Fife), Hayland (Highland), Na-h-Elanan-Şiar (Na-h-Eileanan Siar) inzibati ərazi vahidlərində, İngiltərənin Şərqi İngiltərə (East of England), Cənub-Şərqi İngiltərə (South East England), Qərbi Midland (West Midlands), Şimal-Qərb İngiltərə (North West England), Şimal-Şərq İngiltərə (North East England) regionlarında, İtaliya Respublikasının Toskana (Toscana) regionunda, Uelsin Anqlesey (Isle of Anglesey), Pouis (Powys) inzibati ərazi vahidlərində, Amerika Birləşmiş Ştatlarının Kolorado (Colorado), Florida (Florida), Minnesota (Minnesota) ştatlarında qeydə alınmış **yüksək patogen quş qripi** xəstəlikləri aradan qaldırılıb.

Belə ki, aradan qaldırılmış xəstəliklər üzrə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adıçəkilən ölkələrin qeyd olunan inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatı və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, sözügedən xəstəliklərin baş verməsinə görə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1. Xırdabuynuzlu heyvanların taun xəstəliyi üzrə:**

**1.1.1.** 2024-ci il 5 iyun tarixli 036/356 nömrəli qərarla Gürcüstanın Aşağı Kartli regionuna tətbiq edilmiş məhdudiyyət.

**1.2. Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

**1.2.1.** 2022-ci il 1 fevral tarixli 009/184 nömrəli qərarla Nepal Federativ Demokratik Respublikasının Şərq (East) əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.2.** 2022-ci il 14 mart tarixli 019/194 nömrəli qərarla Nepal Federativ Demokratik Respublikasının Qandaki (Gandaki) əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.3.** 2022-ci il 30 mart tarixli 021/196 nömrəli qərarla Nepal Federativ Demokratik Respublikasının Madheş (Madhesh) əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.4.** 2022-ci il 5 may tarixli 031/206 nömrəli qərarla Kanadanın Manitoba (Manitoba) və Nyu-Brunsvik (New Brunswick) əyalətlərinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.5.** 2022-ci il 2 iyun tarixli 035/210 nömrəli qərarla Kanadanın Şahzadə Eduard Adası (Prince Edward Island), Nyufaundlend-Labrador (Newfoundland and Labrador) əyalətlərinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.6.** 2022-ci il 7 iyun tarixli 036/211 nömrəli qərarla Şotlandiyanın Şetland (Shetland Islands) adalarına tətbiq edilmiş məhdudiyyət;

**1.2.7.** 2022-ci il 17 oktyabr tarixli 058/233 nömrəli qərarla İngiltərənın Şərqi İngiltərə (East of England) və Cənub-Şərqi İngiltərə (South East England) regionlarına tətbiq edilmiş məhdudiyyət;

**1.2.8.** 2022-ci il 21 oktyabr tarixli 060/235 nömrəli qərarla Şotlandiyanın Eilean-Siar (Eilean Siar) inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.9.** 2022-ci il 28 oktyabr tarixli 061/236 nömrəli qərarla İngiltərənin Qərbi Midland (West Midlands) regionuna və Uelsin Anqlesey (Isle of Anglesey) adasına tətbiq edilmiş məhdudiyyət;

**1.2.10.** 2022-ci il 1 noyabr tarixli 062/237 nömrəli qərarla İngiltərənın Şimal-Qərb İngiltərə (North West England) regionuna tətbiq edilmiş məhdudiyyət;

**1.2.11.** 2022-ci il 13 dekabr tarixli 072/247 nömrəli qərarla İngiltərənın Şimal-Şərq İngiltərə (North East England) regionuna tətbiq edilmiş məhdudiyyət;

**1.2.12.** 2022-ci il 30 dekabr tarixli 076/251 nömrəli qərarla Şotlandiyanin Pert və Kinross (Perthshire and Kinross) inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.13.** 2023-cü il 10 yanvar tarixli 001/252 nömrəli qərarla Şotlandiyanin Anqus (Angus) inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.14.** 2023-cü il 21 fevral tarixli 008/259 nömrəli qərarla Şotlandiyanin Damfris-Qalloyey (Dumfries and Galloway), Şərqi Ayrşir (East Ayrshire), Fafe (Fife) inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.15.** 2023-cü il 10 aprel tarixli 015/266 nömrəli qərarla İtaliya Respublikasının Toskana (Toscana) regionuna tətbiq edilmiş məhdudiyyət;

**1.2.16.** 2023-cü il 4 may tarixli 018/269 nömrəli qərarla Uelsi Pouis (Powys) inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.17.** 2023-cü il 17 avqust tarixli 036/287 nömrəli qərarla Şotlandiyanin Haylənd (Highland) və Na-h-Elanan-Şiar (Na-h-Eileanan Siar) inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.18.** 2023-cü il 17 oktyabr tarixli 045/296 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Minnesota (Minnesota) ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.2.19.** 2024-cü il 15 iyul tarixli 043/363 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Kolorado (Colorado) ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.2.20.** 2024-cü il 31 iyul tarixli 048/368 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Florida (Florida) ştatına tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentlik Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

5. Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi**

Baş Dövlət Baytarlıq Müfəttişi

Chief Veterinary Officer

**Qalib Əbdüləliyev**